KREDO
№ 37 (1293) 19 dekabr 2025-ci il
S.16

# ƏDƏBİ YAŞANTILAR VƏ YA GÜNDƏLİKDƏN SƏTİRLƏR

*"Gündəlik" deyəndə ilk əvvəl gözümüzün önündə orta təhsil prosesi zamanı şagirdlərin dərsə hazırlıq səviyyəsini özündə əks etdirən qalın dəftərlər canlanır. Amma bir gündəlik də var ki, yaradıcı insanlar sözə çevirmək istədikləri daxili yaşantıları elmi-publisistik və sənədli fikirlər şəklində yazdıqca bura köçürürlər. Ən müxtəlif peşə sahiblərindən fərqli olaraq qələm adamları gündəlik yazmağa daha çox meyl göstərirlər. Həyatı müstəqil surətdə dərk etdiyi məqamdan gündəlik yazmağa özünü öyrəşdirən adamların bir qismi sonradan yazıçı olmasa da qeydləri özünə və başqalarına çox gərəkli ola bilər. Ən başlıcası da odur ki, gündəlik tutan adam fasiləsiz yaza bilmək kimi çox zəruri bir vərdişə yiyələnmiş olur.*

*Mən də həyatımın son otuz ili ərzində müəyyən fasilələrlə gündəlik yazıram. Ümumən yazdıqlarımın hardasa yarısına bərabər olan bu dəftərlərin həcmi yüz çap vərəqinə yaxındır. Bir qəribəlik də bundadır ki, ümumi həyatımızda qəm notları çoxluq təşkil etdiyindən gündəliklərim də başdan-başa kədərli məqamlarla, ağrı-acılarla doludur. Bu ağrı-acıların içində ara-sıra göz yaşı kimi, bulaq suyu kimi təmiz, saf, bakirə duyğular və əhvalatlar əks olunub ki, bunun da adına mən ədəbi yaşantılar deyərdim. Mən zaman-zaman daxilinə nüfuz etdiyim və içimdən keçirdiyim bu yaşantıları qələmə almaqla hər cür dedi-qodudan, ədəbi intriqalardan uzaq olmağa çalışmış, daha çox işıqlı məqamların yazıya alınmasına cəhd etmiş və bu kiçik işimlə ədəbi mühitimizə bacardığım səviyyədə güzgü tutmağa çalışmışam. Bu fikirlər və digər adda-budda qeydlər haqqında obyektiv qiyməti isə dəyərli oxucularımızdan gözləyirik. "Ədəbi yaşantılar" başlığı altında ancaq sözlə nəfəs aldığım hadisə və məqamları əks etdirərək cəmləşdirməyə çalışmışam.*

**12 Avqust-1974.** Bu ayın 8-də mən "Azərbaycan gəncləri" qəzeti redaksiyasına gəlmiş, şeirlərimi məktəbli və gənclər şöbəsinin müdiri Rizvan Cəbiyevə göstərib çap olunmasını xahiş etmişdim. Rizvan müəllim mənə dedi ki, şeirlərə ədəbiyyat və incəsənət şöbəsinin müdiri, şair Tofiq Mütəllibov baxır, o isə hazırda məzuniyyətdədir. Bu gün də yenidən həmin qəzetin redaksiyasına getdim. Orada mənə bildirdilər ki, Tofiq müəllim ancaq ayın 15-dən sonra işə çıxacaq. Redaksiyadan çıxıb Mərdəkana qayıtdım. Əmimgil növbəti qəbul imtahanından əla qiymət aldığımı bildikdə xeyli sevindilər.

**26 Avqust-1974.** Bu gün ADU-ya yenicə qəbul olunmuş tələbələrin siyahısını oxudular Mənim adım o siyahıda çəkilmədiyi üçün dərin mənəvi sarsıntılar içində oradan çıxıb "Bakı Soveti" metro stansiyasının qarşısına gəldim. Şeir dəftərimi özümlə götürmüşdüm. Metro ilə üzbəüzdəki nəhəng binanın dördüncü mərtəbəsində yerləşən "Azərbaycan gəncləri" qəzetinin redaksiyasına qalxdım. Ədəbiyyat və incəsənət şöbəsinin müdiri Tofiq Mütəllibov bu dəfə yerində idi. Mətbuatı ardıcıl izlədiyimdən əvvəllər də Tofiq müəllimin şeirlərini,yazılarını, oxucuların yaradıcılığı barəsindəki xülasələrini mətbuatdan çox oxumuşdum. Mən şeirlərimi ona təqdim etmək fikrində olduğumu bildirdim. Tofiq müəllim işinin çox olduğunu, bu gün şeirə baxmağa imkanı olmayacağını bildirdi. Sonra öz telefonunun nömrəsini mənə verdi və dedi ki, sabah əvvəlcə ona zəng edim və şeirləri götürərək redaksiyaya gəlim. Ordan çıxıb Mərdəkana-əmimgilə qayıtdım. Beləliklə, Tofiq müəllim mənim həyatda Famil Mehdidən sonra gördüyüm və canlı ünsiyyətdə olduğum ikinci tanınmış şair idi.

**27 avqust 1974.** Vədələşdiyimiz kimi,bu gün dəftərimi də götürüb redaksiyaya, T.Mütəllibovun yanına getdim. Tofiq müəllim dedi ki, özün bəyəndiyin şeirlərdən üçünü göstər, mən də nəzərdən keçirim. Mən "Nəsimi","Silahlar olmasaydı" və "İstedad təntənəsi" adlı şeirlərimi göstərdim. Ustad şair bu şeirlərin üçünü da diqqətlə oxuyub dedi: "Düzdür, yazırsan, amma hələlik qələm təcrübələrin bir qədər zəifdir. Əgər özünü bütünlüklə söz sənətinə, bədii yaradıcılığa həsr etmək istəyirsənsə, hökmən Yazıçılar İttifaqının nəzdində fəaliyyət göstərən dərnəklərin, ədəbi biliklərin işinə qoşulmalı, keçirilən tədbirlərdə fəal iştirak etməlisən. Yazılarının indi çap olunmadığı üçün bizdən incimə. Şeirlərində hiss etdiyim bəzi işartılar, obrazlı ifadələr gələcəkdə ciddi qələm sahibi olacağından xəbər verir. Xüdahafisləşib çıxanda Tofiq müəllim mənə Lenin adına Mərkəzi şəhər kitabxanasında fəaliyyət göstərən "Tərənnüm" ədəbi birliyinə qatılmağı məsləhət gördü.

**15 sentyabr 1974.** Dörd gün əvvəl Bakı avtomobil ehtiyat hissələri zavoduna fəhlə düzəlmişəm və indi zavodun yataqxanasında yaşayıram. Bazar günüdür. Su qızdırıb paltarlarımı yudum və onları asandan sonra şəhərə-ədəbiyyat dərnəyinin məşğələsinə getdim. İlk dəfə dərnək üzvlərini gördüm. Bu kiçik bir qrup gəncin oxuduğu şeirlər məni valeh elədi. Açıq-aşkar hiss edilirdi ki, bu cavanlar gələcəyin çox qüdrətli qələm sahibləri ola biləcəklər. Mən də bu günkü məclisdə son şeirlərimdən ikisini oxudum və bəzi xoş sözləri eşitdikdə fərəh hissi keçirdim. Məclisdə oxunan hər bir yazı ətraflı fikir süzgəcindən keçirilir. Demək olar ki, bu fikirlərdə hər bir yazının obyektiv qiyməti əks olunur. Bu üsul yaradıcı gənclərin intellektual bacarığının inkişafına, həmçinin ədəbiyyat tənqidçisi kimi formalaşmasına müsbət təsir göstərir.Tənqidi fikir söyləyənlər tez-tez ayrı-ayrı görkəmli qələm sahiblərinin və söz ustalarının qiymətli fikirlərinə istinad edirdilər. Bir oğlanın istedadı isə bizi xüsusilə valeh etdi. M.F.Axundov adına Pedaqoji institutda təhsil alan bu tələbə oğlan ingiliscədən ruscaya, ruscadan azərbaycan dilində şeirlər tərcümə edir. O, maraqlı tərcümələri ilə bizi tanış etdi. Kitabxananın azərbaycan bölməsinin müdiri Nadiyə xanım bildirdi ki, yaxın vaxtlarda oxu zalında Anar, Elçin və Əkrəm Əyrisli ilə gənclərin görüşü keçiriləcək. Yataqxanaya xoş bir əhvali-ruhiyyə içində qayıtdım.



*(Davamı var)*

*Bayram AFURCALI*